Azərbaycan.- 2021.- 22 aprel. S. 1;5.

# Azərbaycan davamlı tərəqqiyə, Ermənistan isə sonsuz tənəzzülə köklənib

## Bunu Prezidentin iştirakı ilə açılan yeni enerji və sənaye obyektləri bir daha təsdiqləyir

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev aprelin 19-da Bakının Suraxanı rayonunda "Azərenerji" ASC-nin yenidən qurulan "Hövsan" yarımstansiyasının açılışı mərasimində iştirak etmiş, həm bu stansiyanı, həm də məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sistemi vasitəsilə "Maştağa" yarımstansiyasını işə salmışdır.

Əvvəlcə, onu qeyd edək ki, 45 il əvvəl tikilən "Hövsan" yarımstansiyası müasir səviyyədə yenidən qurulmuşdur. Nəticədə "Şimal" Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisinin ötürülmə keyfiyyəti artmış və bunun sayəsində Bakı və Abşeron yarımadasının, xüsusən də Suraxanı, Günəşli, Əhmədli ərazilərinin elektrik enerji təchizatı yaxşılaşmışdır.

*Ardı 5-ci səh.*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Daha 40 şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə mənzillər verildi

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Sabunçu rayonu, Ramana qəsəbəsində daha 40 şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə mənzillər təqdim olunub.**

Mənzillərin sənədlərini nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov və Nazirlik yanında İctimai şuranın sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev təqdim ediblər.V.Behbudov çıxışında şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə sosial dəstək göstərilməsi sahəsində aparılan genişmiqyaslı işləri diqqətə çatdırıb. O, Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli sərəncamı ilə 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi ev veriləcəyini vurğulayıb.

Qeyd olunub ki, bu il ərzində 3 minədək mənzil və fərdi ev bu kateqoriyadan olanlara təqdim ediləcək. Bu gün verilən mənzillər də daxil olmaqla 2021-ci ilin planı üzrə artıq 300 mənzil şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə verilib. 2021-ci ildə regionlarda 450 fərdi ev də tikilərək qeyd olunan kateqoriyadan olan şəxslərə təqdim ediləcək.

Ümumilikdə, indiyədək şəhid ailələrinə, müharibə əlillərinə 9500 mənzil və fərdi ev verilib.

## Qazilərimizin yüksək texnologiyalı protezlərlə təminatına başlanır

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində yuxarı ətrafların yüksək texnologiyalı protezlərlə təminatı sahəsində qabaqcıl dünya təcrübəsinin öyrənilməsi üçün 4 günlük təlimlərə başlanıb.

Təlimləri bu sahədə dünyanın ən qabaqcıl texnologiyaya sahib şirkəti olan İslandiyanın "ÖSSUR" şirkətinin Rusiya nümayəndəliyinin mütəxəssisləri aparır.

Agentliyin sədri Cavid Əbdul-qədirov vurğulayıb ki, Prezident İlham Əliyevin müharibə iştirakçılarına xüsusi qayğısının təzahürü olaraq, qazilərimizlə bağlı genişmiqyaslı dəstək tədbirləri həyata keçirilir. Dəstək tədbirləri sırasında müharibədə yaralanmış qazilərimizin reabilitasiya xidmətləri və reabilitasiya vasitələri ilə təminatı mühüm yer tutur.

Bildirilib ki, müharibə əlillərinin ötən ilin dekabr ayından yüksək texnologiyalı protezlərlə təminatı işləri aparılır. Artıq 16 hərbçi yüksək texnologiyalı protezlə təmin olunub və bu sahədə işlər davam etdirilir. Yaxın zamanlarda daha 12 hərbçi elektron ayaq protezi ilə təmin olunacaq.

## Azərbaycan davamlı tərəqqiyə, Ermənistan isə sonsuz tənəzzülə köklənib




### Bunu Prezidentin iştirakı ilə açılan yeni enerji və sənaye obyektləri bir daha təsdiqləyir

*Əvvəli 1-ci səh.*

Faktiki olaraq bu yarımstansiyanın yenidən qurulması ölkənin həm paytaxtında, həm də şimal bölgəsində enerji təchizatında yeni imkanlar yaratmışdır.

Yenidən qurulan "Maştağa" yarımstansiyası da 1949-cu ildə tikildiyindən istismar müddəti başa çatmışdı. Yenidən qurulduqdan sonra yarımstansiyanın əvvəlki gücü bərpa edilmiş, istehlakçıların fasiləsiz və keyfiyyətli enerji təchizatına zəmin yaradılmışdır. "Maştağa" yarımstansiyası bundan sonra Maştağa, Buzovna, Bilgəh, Nardaran qəsəbələrini, Savalan, "Albalılıq" yaşayış massivlərini, dənizkənarı sanatoriya, xəstəxana, hotellər və digər obyektlər də daxil olmaqla Sabunçu və Xəzər rayonlarının 150 min nəfərə çatan əhalisini elektrik enerjisi ilə etibarlı təmin edəcək.

Bütün bunlar o deməkdir ki, biz ölkənin enerji sektorunda tətbiq edilən yeniliklərin fonunda Azərbaycan Prezidentinin sosial-iqtisadi siyasət kursunun məqsədyönlü inkişafının şahidi oluruq. Postmüharibə dövründə iqtisadi islahatların tətbiqi müstəvisindən Ermənistana nəzər salanda işğalçıların hələ də məğlubiyyət sindromundan əziyyət çəkdiyini görürük.

Faşist ideoloigiyasının erməni xalqının bütün perspektivlərinə qənim kəsildiyini anlamayan erməni siyasi eilatası ona təklif edilən sülh imkanlarından faydalanmaq əvəzinə hələ də süst düşmənçiliklə ləngərləyir, Bakıda açılan Qənimətlər parkına dodaq büzüb ağzı əmzikli uşaq kimi inildəyir. Təəssüf ki, onlar nə qədər komik göründüklərinin fərqində deyillər.

Erməni nasistləri Azərbaycan ərazilərində törətdikləri vəhşilikləri, dağıtdıqları məscid və kilsələri, viran qoyduqları şəhər və kəndləri, dinc əhaliyə qarşı törətdikləri saysız cinayətləri gizlətmək istəyirlər. Elə bilirlər ki, yüz il əvvəl şaumyankimilərinin cinayətlərini necə ört-basdır etmişlərsə, indi də yalan və böhtanlar arxasında gizlənə biləcəklər. Alınmayacaq. Başlarını mənasız oyunlara qatırlar. Bu, onların personal faciəsidir.

Sadə bir faktı xatırlayaq: 30 illik işğal dövründə böyük Ermənistan ideyası ilə savaşa qalxan 3,5 milyonluq Ermənistanda bu gün əhalinin sayı iki dəfə azalıb. Çünki işğal etdikləri ərazilərdə məskunlaşa bilmədilər və bununla özləri də bilmədən sübut etdilər ki, böyük Ermənistan ideyası erməni xalqının yox, bölgədə münaqişəni daim körükləmək istəyən qüvvələrin təxəyyülünün məhsuludur. Böyük Ermənistan yaratmaq istəyən xalqın tən yarısı niyə bu ölkəni tərk etdi, yaxud 10 min fərarisi olan erməni ordusu niyə döyüşmək istəmədi?

Qənimətlər parkı və bundan sonra işğal edilmiş ərazilərdə yaradılacaq muzeylər bu suallara cavab verəcək. İliyinədək faşizm ideyalarına yoluxan xalq və onun siyasi elitası törətdikləri bütün cinayətlərin cəzasını çəkməli, bədəlini ödəməlidir. Biz bu müharibədə nə qədər fərqli və humanist olduğumuzu nümayiş etdirdik. Azərbaycan postmüharibə dövründə yeni intibaha start verib və yeni hədəflərə köklənib. Ermənistan isə hələ də daxili didişmələrin məngənəsində üzülür.

Biz işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işlərinə başlamışıq - yeni yollar çəkir, aeroportlar tikir, "ağıllı" kənd və "ağıllı" şəhər layihələrini reallaşdırır, aqrar sektoru dirçəldirik. "Hövsan" yarımstansiyasının açılışı zamanı "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlət başçısına məlumat verdi ki, Şükürbəyli də, Şuşa da yeni obyektlərin açılışına hazırdır. İki nömrəli xətt artıq çəkilib, Füzuli yarımstansiyasının xətti də hazırdır, ay yarıma özü də hazır olacaq. Erməni işğalçılarının dağıtdıqları su elektrik stansiyalarından "Suqovuşan 1" və "Suqovuşan 2" işə salınıb və hazırda testlərdən keçirilir. Yaxın günlərdə işlərin tam başa çatması barədə dövlət başçısına məruzə ediləcək. Kəlbəcərdə araşdırmalar gedib, müəyyənləşdirmələr aparılır, yol problemi avadanlıqların daşınmasında çətinlik törətsə də yarımstansiyanın tikintisi sürətlə aparılır. Artıq hərbçilər elektrik enerjisi ilə təmin edilir, Şuşaya fasiləsiz elektirik enerjisi verilir.

Bəli, Azərbaycan üçün müharibə qurtarıb və kimsə bizim müqəddəs qələbəmizə kölgə salmaq gücündə deyil. Ermənistanda isə siyasi elita məğlubiyyətdən özünə gələ bilməsə də, övladları bizim torpaqlarımızda qırılan erməni əsgərlərinin valideynləri artıq dərk edir ki, Qarabağ onların deyil və özgə torpaqları uğrunda ölmək ağılsızlıqdır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## İnformasiya və rabitə xidmətlərinin dəyəri artıb

İnformasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən yanvar-mart aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə göstərilmiş xidmətlərin dəyəri real ifadədə 2,5 faiz artaraq 531,2 milyon manat olub.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu sahədə əldə edilmiş gəlirin 79,6 faizi qeyri-dövlət sektorunun payına düşüb. Xidmətlərdən əldə edilən gəlirin 41,2 faizi və ya 219 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşıb.

Rabitə xidmətlərinin dəyəri rabitə müəssisəsinin əsas fəaliyyətindən əldə olunan gəlirlərdir. Bu göstərici idarə, müəssisə və təşkilatlara, habelə əhaliyə göstərilmiş xidmətlər müqabilində rabitə müəssisəsinin əldə etdiyi pul vəsaitinin cəmini xarakterizə edir. Buraya poçt rabitəsi, feldyeger və xüsusi rabitə, sənədli elektrik rabitəsi, şəhərlərarası və beynəlxalq telefon rabitəsi, şəhər telefon rabitəsi, kənd telefon rabitəsi, radiorabitə, radio və televiziya yayımı və peyk rabitəsi, naqilli səs yayımı üzrə radiotezliklərin ayrılması, qeydiyyatı, istismarı və nəzarəti, naqilsiz radiorabitə üzrə mobil telefon rabitəsi, internet xidmətləri, ISDN xidmətləri, ADSL və HDSL xidmətləri, DATA xidmətləri, simsiz yerli telefon rabitəsi xidmətləri və digər rabitə xidmətləri üzrə əldə olunmuş gəlirlər daxildir.

*Çiyid səpini*

## Biləsuvarda 8,5 min hektarda pambıq becəriləcək

**Bir neçə gündür ki, Biləsuvarda çiyid səpininə başlanılıb.**

Ötən il pambıq plantasiyalarından 28 min 333 ton xam pambıq istehsal edən biləsuvarlı əkinçilər cari ildə 8 min 520 hektar sahəyə çiyid səpməyi planlaşdırıblar.

Bunun üçün 1491 məhsul istehsalçısı ilə müqavilə bağlanılıb və onlar lazımi texnika, toxum, dərman preparatları ilə təmin olunub və digər lazımi köməklik göstərilib.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, səpin kampaniyasına mütəşəkkil başlayan pambıq istehsalçıları qısa müddətdə 2 min 334 hektar sahəyə toxum səpiblər. İşin yaxşı təşkili nəticəsində gün ərzində rayon üzrə ümumilikdə, 120-130 hektar sahəyə çiyid səpilir. Səpin aparılmış sahənin 1017 hektarı "MKT-İK" MMC-yə, 214 hektarı "AZƏRPAMBIQ" MMC-yə, 625 hektarı "P-AQRO" MMC-yə, 478 hektarı isə "Təcrübə-Sınaq" məntəqəsinə məxsusdur. Məhsul istehsalçıları səpini optimal müddətdə başa çatdırmaq üçün bütün imkanlardan səmərəli istifadə edirlər.

## Ağcabədidə isə səpin başa çatmaq üzrədir

Respublikamızın ən iri pambıqçılıq rayonlarından olan Ağcabədidə çiyid səpini başa çatmaq üzrədir.

AZƏRTAC xəbər verir ki, cari ildə rayon ərazisində 10 min 986,2 hektara yaxın əkin sahəsində pambıq əkilməsi planlaşdırılıb. Bununla əlaqədar olaraq, "Azərpambıq" MMC, "MKT İstehsal Kommersiya" MMC və "P-Agro" MMC ilə istehsalçılar arasında müqavilələr bağlanılıb. Əkin sahələrindən yüksək məhsul əldə etmək üçün aqrotexniki tələblərə düzgün və ardıcıl əməl olunması diqqət mərkəzində saxlanılıb. Sahələr optimal müddətdə şumlanılıb, təmizlənib, suvarma suyu və mineral gübrələrlə təmin olunub, malalanıb. Ağcabədi pambıqçıları səpin kampaniyasına mütəşəkkil başlayaraq qısa müddətdə 9135,86 hektar sahəyə çiyid səpiblər. Səpin aparılmış ərazilərin 343 hektarında çıxış alınıb. Səpin işlərinin bir neçə günə başa çatdırılması nəzərdə tutulur.

## Alimin məsləhəti, əkinçinin zəhməti



**Son dövrlər yeni texnologiyaların ən çox tətbiq olunduğu sahələrdən biri də kənd təsərrüfatıdır ki, bu da təsadüfi deyil. Çünki dünyada ərzağa tələbat sürətlə artır. Tələbatın ödənilməsi üçün isə daha bol məhsul istehsal edilməlidir. Buna nail olmaq üçün indi bütün dünyada tədqiqatlar aparılır və nəticədə aqrar sektorda daha məhsuldar sortlardan istifadəyə üstünlük verilir.**

### Yeni meyvə-tərəvəz sortları bol məhsul yetişdirməyə imkan verir

Azərbaycanda da bu sahəyə xüsusi diqqət yetirilir. Hazırda ölkəmizin kənd təsərrüfatında yeni, daha məhsuldar sortlardan geniş istifadə olunur. Fermerlər bu yolla bitkiçiliyin bütün sahələrində bol məhsul əldə etməyə çalışırlar.

İlk növbədə, mövcud sortlar seleksiya yolu ilə təkmilləşdirilərək daha məhsuldar səviyyəyə gətirilir. Bununla yanaşı, Azərbaycana xarici ölkələrdən də məhsuldar sortlar gətirilir və onlar yerli şəraitə uyğunlaşdırıldıqdan sonra fermerlərə verilir. Yeri gəlmişkən qeyd edək ki, son bir neçə ildə meyvəçilikdə və tərəvəzçilikdə məhsuldarlığın artmasının bir səbəbi də bununla bağlıdır.

Təsadüfi deyil ki, indi fermerlər bağ salarkən əvvəlcə mütəxəssislərlə məsləhətləşirlər, əsasən də hansı meyvə sortlarının əkiləcəyi müzakirə edilir. Məqsəd, əlbəttə, daha çox məhsul əldə etməkdir. Odur ki, fermerlər qərarı mütəxəssislərin rəyinə uyğun olaraq verirlər.

Onların mütəxəssislərdən məsləhət alarkən əsas diqqət yetirdikləri məqamlardan biri də yeni sortlardan istifadə qaydaları ilə bağlıdır. Məsələn, tovuzlu fermerlər bağ salmağa rentabelliyi əvvəlcədən nəzərə almaqla üstünlük verirlər. Onlar mütəxəssislərin məsləhətləri əsasında hansı məhsulun gəlir gətirəcəyini öyrənir, istifadə etdikləri torpağın hansı meyvənin yetişməsi üçün əlverişli olduğunu öncədən müəyyənləşdirərək qərar verirlər. Bunun sayəsində rayonda meyvə istehsalı və ixracı xeyli artıb.

Məlumdur ki, hazırda Azərbaycanın meyvə-tərəvəz ixracında pomidor üstünlük təşkil edir. O, qeyri-neft məhsullarının ixracında ölkəmizə ən çox valyuta gətirən tərəvəzdir. Odur ki, ölkədə pomidorun becərilməsinə və xarici bazara çıxarılmasına xüsusi dəstək verilir. Bu məhsul Azərbaycanda iki qaydada yetişdirilir. Biri pomidorun istixanalarda yetişdirilməsi, digəri ənənəvi qaydada, yəni tarlada əkilməsidir. Dövlət məhsulun hər iki qaydada yetişdirilməsi üçün fermerlərə dəstək verir, həmçinin bu sahədə yeni sort məhsuldar toxumlardan istifadəni stimullaşdırır.

Hazırda yaz-tarla işlərinin qızğın çağıdır. Bir çox məhsulların əkini həyata keçirilir. Saatlı rayonunun Qaralar kəndində çalışan fermer Həbib Əhmədov da özünə məxsus olan əkin sahəsində pomidor becərmək barədə qərar verib. O, həm də bu il əkinin aparılmasında innovativ üsula və daha məhsuldar "Lajin" sortuna üstünlük verib. Qeyd edək ki, "Lajin" sortunun yetişmə müddəti digər növlərə nisbətən çox qısadır. Belə ki, bu sortdan olan pomidorun yetişmə müddəti 70-80 gündür. Bu sort həmçinin istiliyə dözümlülüyü ilə də seçilir. O səbəbdən təkcə Saatlıda yox, bütün Aran bölgəsində fəaliyyət göstərən fermerlər həmin sorta üstünlük verirlər.

Azərbaycan qədim zamanlardan üzümlüklər diyarı kimi də tanınır. Ölkəmizin müxtəlif yerlərində yüzlərlə üzüm sortu mövcud olub. Lakin indi bu sahədə də daha məhsuldar sortların yetişdirilməsinə ehtiyac var. Üzümçülükdə məhsuldarlıq və ətraf mühitə dözümlülük əsas şərtlərdəndir. AMEA-nın Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Meyvə, tərəvəzçilik və üzümçülük laboratoriyasının rəhbəri, aqrar elmlər doktoru Varis Quliyevin üzümçülük sahəsində uzun illər apardığı elmi-tədqiqat işləri uğurla nəticələnib. Alim apardığı tədqiqatlar sayəsində müxtəlif genetik üsullarla yeni yaratdığı "Naxçıvan muskatı", "Əlincə", "Oğuz üzümü", "Qəhvəyi kişmişi", "Milax üzümü", "Bənəniyar üzümü" adlı yeni sortlara görə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi tərəfindən 6 patent və müəlliflik şəhadətnaməsi alıb.

Sözügedən sortlardan "Qəhvəyi kişmişi" tez, "Əlincə", "Oğuz üzümü", "Milax üzümü" orta vaxta , "Naxçıvan muskatı" və "Bənəniyar üzümü" isə gec yetişəndir. Yeni alınmış perspektivli və iqtisadi əhəmiyyətli üzüm sortlarının ölkəmizin əsas üzümçülük bölgələrində artıq becərilməsinə də başlanıb.

Mütəxəssislər və fermerlər yeni sortların yaradılmasının və onların əyani tətbiqinin ölkəmizin aqrar sektoruna, ümumən iqtisadiyyatına böyük fayda gətirəcəyinə əmindirlər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan***

## I rüb üzrə neft-qaz göstəriciləri açıqlanıb



2021-ci ilin I rübü üzrə operativ məlumatlara əsasən, Azərbaycanda təxminən 8,8 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Neft (kondensatla birlikdə) hasilatı ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən, 552 min ton az olub.

Bu dövrdə respublika üzrə neft hasilatının 5,9 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 959 min tonu (kondensat) "Şahdəniz"in payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 1,9 milyon ton təşkil edib.

Hesabat dövründə təxminən 7,3 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 6,9 milyon tonu konsorsium, 370 min tonu isə SOCAR-ın payına düşür. Neftin (kondensatla birlikdə) ixraca nəqli 2020-ci ilin müvafiq dövrünə nisbətən, təxminən 320 min ton, yəni 4 faiz azdır.

Cari ilin yanvar-mart aylarında ölkədə 10,4 milyard kub metr qaz hasil edilib. Qazın 3,4 milyard kub metri AÇG-dən, 5,1 milyard kub metri "Şahdəniz" yatağından, 1,9 milyard kub metri isə SOCAR tərəfindən hasil olunub. Ötən ilin müvafiq dövrünə nisbətən 4 faiz, yəni 407 milyon kub metr artımla qaz hasil edilib.

Hesabat dövründə xaricə qaz satışı təxminən 5 milyard kub metr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə təqribən 39,5 faiz çoxdur. Bu ilin ilk 3 ayı ərzində 2020-ci ilin müvafiq dövrünə nisbətən Türkiyəyə 15,8 faiz çox, yəni 3 milyard kub metr, Avropaya təqribən 1,1 milyard kub metr, Gürcüstana isə 784 milyon kub metr qaz ixrac edilib. Bu dövrdə BTC boru kəməri sisteminə 27 milyon kub metr qaz verilib. Qeyd edək ki, TANAP ilə Türkiyəyə bu müddətdə 1,4 milyard kub metr qaz nəql olunub.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən 01 aprel 2021-ci il tarixədək təqribən 561 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. AÇG-dən 530 milyon ton xam neft, "Şahdəniz"dən isə 31 milyon ton kondensat çıxarılıb. "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən 2021-ci ilin 1 aprel tarixədək təqribən 560,5 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql edilib. Yataqlar istismara veriləndən cari ilin 1 aprel tarixədək "Azəri-Çıraq-Günəşli"dən 180 milyard kub metr, "Şahdəniz"dən isə 140 milyard kub metr qaz hasil edilib. Bu dövrdə "Şahdəniz" yatağından hasil edilən qazın təxminən 95 milyard kub metri ixraca nəql edilib.

Ölkədə neft emalı 2021-ci ilin yanvar-mart aylarında 1,4 milyon ton təşkil edib. Neft emalı ötən ilin müvafiq dövrünə nisbətən 93 min ton az olub.

## 5 rayon üzrə 10 kəndin yolu yenidən qurulur



Dövlət başçısının tapşırığına uyğun olaraq, yol infrastrukturunun yenidən qurulması, müasir səviyyəyə çatdırılması ilə bağlı layihələr hər bir bölgəni, rayonu və kəndi əhatə edir.

Bu cür layihələrdən bir neçəsi Ucar, Zərdab, Ağcabədi, Yevlax və Şəki rayonları ərazisində icra olunur. Belə ki, Azərbaycan Hökuməti ilə Asiya İnkişaf Bankı arasında imzalanmış kredit sazişi çərçivəsində Şəki rayonu Dərəcənnət və Təpəcənnət, Yevlax rayonu Qaraoğlan və Quşçu, Ucar rayonu Alpı və Qulabənd, Zərbad rayonu Yarməmmədbağı, Körpükənd və Əlvənd və Ağcabədi rayonu Şənlik kənd yollarının bərpasının maliyyələşdirilməsi qərara alınıb.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən icra edilən layihəyə əsasən, qeyd edilən kənd yollarının ümumi uzunluğu 61,7 kilometrdir. IV texniki dərəcəyə uyğun olaraq bərpa edilən yolların hər birinin eni 10 metrdir.

Əsaslı şəkildə yenidən qurulan yerli əhəmiyyətli bu yollar 10 kəndin 12 mindən artıq əhalisi ilə yanaşı, həmin yollardan istifadə edən bütün vətəndaşların rahat gediş-gəlişini təmin edəcək. Bundan başqa, kənd təsərrüfatı məhsullarının tez və xarab olmadan rayon mərkəzinə və qonşu rayonlara daşınmasına şərait yaradacaq.